2011-ci ilin dekabrında, Avropa Komissiyası 2014-2020-ci illər üçün yeni xarici yardım alətlərinin, o cümlədən Avropa qonşuluq siyasətinin təsdiqlənməsinə dair Avropa Parlamentinə təkliflə müraciət etdi. 2011-ci il 25 may Birgə Kommunikeyə əsasən, yeni Avropa qonşuluq aləti (ENI – European Neighborhood Instrument) Avropa İttifaqının sərhədlərindən şərqdə və cənubda yerləşən 16 tərəfdaş ölkəyə, 2014-cü ildən 2020-ci ilə qədər müddət ərzində yardım göstərəcəkdir. Sözügedən alət Gürcüstanda 2015-ci ildə qüvvəyə mindi. Sözügedən alət Gürcüstanda 2015-ci ildən fəaliyyətə düşüb.

Qeyd etmək lazımdır ki, ENPI-dən fərqli olaraq, ENI Rusiya ilə əməkdaşlığı əhatə etmir.

ENI-nin ümumi büdcəsi 2014-2020-ci illərdə 15 milyard avronu təşkil edirdi, qonşuluq suyasətinin 16 ölkəsini növbəti istiqamətlərdə dəstəkləndirmək üçün:

1. İkitərəfli proqramlar, bunlar da ayrı-ayrı tərəfdaş ölkə üçün dəstəyi nəzərdə tuturlar;
2. Hərtərəfli proqramlar, bunlar da bütün və ya bir neçə tərəfdaş ölkə qarşısında mövcud ümumi çağırışlara cavab verir və eləcə də iki və ya çox tərəfdaş ölkə arasında regional və yarımregional əməkdaşlığı əhatə edir;
3. Sərhədyanı əməkdaşlıq (CBC).

Tərəfdaş ölkələrin həvəsləndirilməsi məqsədilə, Avropanın qonşuluq aləti diferensiasiya metodundan və "çox üçün çox" prinsipindən istifadə edir: qaydaya əsasən, xüsusi diqqət həmin ölkələrə verilir, hansılar həqiqətən də qanunun aliliyinə istinad edərək, güclü və sabit demokratiyanın quruculuğunda iştirak edirlər və maliyyə yardımının bölünmə kriteriləri diferensiasiya prinsipinə istinad edirlər. Avropa qonşuluq aləti Avropa İttifaqı ilə tərəfdaşlıq nöqteyi-nəzərindən, ölkənin ambisiya səviyyəsini dərin və sabit demokratiyanın quruculuğunda və islahatların həyata keçirilməsi cəhətindən razılaşdırılmış məqsədlərin yerinə yetirilməsində onun nailiyyətini əks etdirməlidir.

ENI-nin əsas məqsədləridir: insan hüquqlarına və təməli azadlığa imkan yaradılması; Avropa İttifaqının daxili bazarında mütərəqqi iqtisadi inteqrasiyaya dəstəyin verilməsi; təhlükəsizliyə dəstəyin verilməsi məqsədilə, etimadın bərpa edilməsi və münaqişələrin qarşısının alınması və həlli; eləcə də diqqət xalqlar arasında əlaqələrin inkişafına, sahə üzrə əməkdaşlığa (məs., enerji və iqlim dəyişkənliyi sahələrində) və ictimai vətəndaş təşkilatlarının inkişafına diqqət yönəldiləcəkdir.

ENI qaydaları Avropa İttifaqının daxili alətləri və siyasəti ilə daha da böyümüş əlaqələri təmin edir ki, Avropa İttifaqının siyasəti ilə müəyyən edilmiş yardım gücləndirilsin və bu da Avropa İttifaqının büdcəsinin daxili və xarici alətlərinin uyğunluğunu təmin edir. Nəticədə, tərəfdaş ölkələrə və onların vətəndaşlarına imkan verilir ki, Avropa İttifaqının nailiyyətli

daxili proqramlarında iştirak etsinlər, məsələn: tələbələrin mobilləşməsi, gənclər üçün proqramlar və ya vətəndaş cəmiyyətinin dəstəkləndirilməsi.